**Ötən əsrin 91-ci ilində sovetlər imperiyasının tərkibindən ayrılaraq ikinci dəfə azadlığına qovuşan Azərbaycan Ermənistanın işğalçılıq siyasəti, ölkə daxili qarşıdurma, vətəndaş müharibəsi, hətta müstəqilliyin yenidən itirilməsi təhlükəsi ilə üzləşib.**



Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra ölkəmiz bu kimi bir çox bəlalardan xilas olub, müstəqil dövlət kimi öz inkişaf yoluna qədəm qoyub. Ermənistanla atəşkəs sazişinin əldə edilməsinin ardınca ulu öndər Azərbaycanın iqtisadi, siyasi sabitliyinin təmin olunması, ölkə iqtisadiyyatının tərəqqisi, dövlətin güclənməsi üçün çoxsaylı islahatlar həyata keçirib. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi olub. "Əsrin müqaviləsi" adlandırılan bu sazişin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edib. Böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsi istiqamətində daha bir uğurlu addım 1999-cu il aprelin 17-də Azərbaycan, Gürcüstan, Ukrayna prezidentlərinin iştirakı ilə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalının istismara verilməsi olub.

1999-cu il noyabrın 18-də isə ATƏT-in İstanbul Zirvə görüşünün gedişində Azərbaycan, Gürcüstan, Türkiyə prezidentləri "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri ilə Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə" dair saziş imzalayıblar.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi neft strategiyasının reallaşdırılması Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də ötən illər ərzində uğurla davam etdirilib. "Qara qızıl"ın insan kapitalına çevrilməsi, ölkə iqtisadiyyatının, xüsusən də qeyri-neft sektorunun inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılıb. Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz boru kəmərlərinin inşasına dair sazişlər imzalanıb, tikinti işlərinə start verilib. Bu enerji layihələri Azərbaycan qazının Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bundan başqa, ölkə başçısının siyasi iradəsi nəticəsində Azərbaycan beynəlxalq nəqliyyat dəhlizləri baxımından da mühüm əhəmiyyət kəsb edən ölkəyə çevrilib. Göründüyü kimi, mənbəyini "Əsrin müqaviləsi"ndən götürən bütün bu tədbirlər Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafını təmin etməklə bərabər, ölkəmizi regionun neft-qaz, enerji mərkəzlərindən biri kimi tanıdıb.

İqtisadi inkişafdan irəli gələrək ölkəmizin bir sıra mühüm tədbirlərə ev sahibliyi etməsi isə Azərbaycanın fərqli yöndən tanınmasına da yol açıb. Belə ki, hərtərəfli inkişaf edən Azərbaycan beynəlxalq əhəmiyyətli tədbirlərdə, yarışmalarda uğurla təmsil olunmağa, qalib olmaq uğrunda inamla mübarizə aparmağa başlayıb. Dünyada mühüm mədəniyyət tədbiri kimi tanınan Avroviziya Mahnı Müsabiqəsinə 2008-ci ildən başlayaraq, hər il davamlı şəkildə qatılan ölkə təmsilçilərimiz 2011-ci ildə bu yarışın qalibi olublar. Eldar Qasımov və Nigar Camalın qalibiyyəti Azərbaycana 2012-ci ildə bu müsabiqəyə ev sahibliyi etmək hüququ qazandırıb. 2012-ci ilin may ayında həmin müsabiqə Azərbaycanın paytaxtı Bakı şəhərində yüksək təşkilatçılıq səviyyəsində keçirilib. 42 ölkə təmsilçisinin iştirak etdiyi müsabiqəni izləmək üçün dünyanın müxtəlif dövlətlərindən on minlərlə əcnəbi turist Azərbaycana təşrif buyurub. Ölkəmiz yarışmanın keçirildiyi günlər ərzində mədəniyyət mərkəzi kimi dünyanın diqqətində olub. Həm ekran qarşısında, həm də paytaxtımıza gələrək Bakı Kristal Zalda müsabiqəni canlı izləyən əcnəbilər Azərbaycanı, onun mədəniyyətini, tarixini, həyat tərzini daha yaxından tanımaq imkanı qazanıblar.

Ötən il ölkəmiz I Avropa Oyunlarına da ev sahibliyi edib. 2015-ci ildə tarixdə ilk dəfə Azərbaycanda keçirilən bu idman yarışında dünyanın 50 ölkəsindən 10 minə yaxın atlet iştirak edib. Onlar 30 idman növü üzrə 253 dəst medal uğrunda mübarizə aparıblar. 12-28 iyun tarixində davam edən yarışlar zamanı Azərbaycan idman mərkəzi kimi yenidən dünyanın diqqət mərkəzinə çevrilib. Bu yarışmanın Bakıda və Mingəçevirdə keçirilməsi ilə Azərbaycan sübut edib ki, istənilən beynəlxalq miqyaslı tədbirə yüksək səviyyədə ev sahibliyi etməyə, ən əsası, bu istiqamətdə öz nümunəsini ortaya qoymağa qadirdir. Heç şübhəsiz, I Avropa Oyunları da Azərbaycanın dünyaya daha yaxından tanıdılmasında mühüm rol oynayıb, bəşəriyyətə dostluq və sülh mesajlarını çatdırıb. Beynəlxalq əhəmiyyətli belə tədbirlərin Azərbaycanda keçirilməsinə daha bir nümunə kimi cari ilin may ayında 17 yaşadək futbolçular arasında Avropa çempionatının Bakıda baş tutmasını da göstərmək olar. Bu çempionatda isə 16 milli komanda 4 qrupda mübarizə aparıblar.

Bu günlərdə bütün Avropanın idman nəbzi növbəti dəfə Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi bu nadir şəhərdə döyünüb. Azərbaycanın paytaxtı Bakı şəhəri dünya əhəmiyyətli daha bir mötəbər idman yarışına ev sahibliyi edib. 17-19 iyun 2016-cı il tarixində qədim Odlar Yurdunda dünyanın ən nüfuzlu idman yarışlarından biri - "Formula-1" üzrə dünya çempionatının 8-ci mərhələsi olan Bakı Avropa Qran-prisi keçirilib və bu yarışda 22 pilot qalib adı uğrunda mübarizə aparıb. I Avropa Oyunlarından bir il sonra dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula-1 yarışının Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirib. Bu baxımdan, 2017-ci ilin may ayında Azərbaycanın IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməsi də təsadüfi sayıla bilməz. 12-22 may tarixində paytaxt Bakıda baş tutacaq bu yarışlarda 21 idman növü üzrə 57 ölkədən 6 minə yaxın atletin mübarizə aparacağı gözlənilir. 2020-ci ildə isə Bakı futbol üzrə Avropa çempionatına ev sahibliyi edəcək. UEFA-nın İcraiyyə Komitəsinin qərarına əsasən Bakı şəhəri qitənin ən nüfuzlu futbol turnirinin 4 matçını qəbul edəcək. Bütün bunlar Azərbaycanın həm də idman ölkəsi olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir.

# Azərbaycan regionun siyasi, mədəni və idman mərkəzinə çevrilib

## Bakı dünyada Şərqlə Qərbin koloritinin cəmləşdiyi elitar turnirlər şəhəri kimi tanınmağa başlayır

Bundan başqa, Azərbaycan mədəniyyət və idman tədbirlərinin keçirildiyi məkan olmaqla bərabər, dünyanın multikulturalizm və siyasi mərkəzinə də çevrilməkdədir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev müxtəlif tədbirlərdə, irimiqyaslı beynəlxalq toplantılarda çıxışı zamanı mütləq multikulturalizm məsələsinə xüsusi yer ayırır. Ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə də multikulturalizm, birgə yaşayış, tolerantlıq, dini və mədəni dözümlülük kimi məsələlərin müzakirəsi mühüm yer tutur. Deyilənlərə əyani misal kimi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı və Qarşılıqlı Fəaliyyət Şurası, Madrid Klubu, İsgəndəriyyə Kitabxanası, Roma Klubu, Dünya Elmlər və Mədəniyyət Akademiyası ilə əməkdaşlıq çərçivəsində "Çoxqütblü dünyaya doğru" mövzusunda 10-11 mart 2016-cı il tarixində paytaxtımızda keçirilən IV Qlobal Bakı Forumunu göstərmək olar. Bu Forumda Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentləri, həmçinin 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edib. Beynəlxalq tədbirdə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması, həmçinin enerji və qlobal idarəçiliyin perspektivləri kimi mühüm məsələlər geniş müzakirə edilib. 2016-cı il aprelin 25-27-də isə paytaxt şəhərimizdə "İnkluziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd" şüarı altında BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilib. Üç gün davam edən beynəlxalq əhəmiyyətli tədbirdə 195 ölkə və 26 beynəlxalq təşkilatdan 3 min nəfərdən çox nümayəndə təmsil olunub. Onlar arasında dövlət və hökumət başçıları, yüksək səviyyəli dövlət və ictimai xadimlər, nazirlər, nüfuzlu beynəlxalq qurumların, dünyada tanınmış beyin mərkəzlərinin rəhbərləri, diplomatlar, elm adamları və digər şəxslər də yer alıblar. Bu beynəlxalq tədbirdə də bəşəriyyətin inkişafına, sülhə, birgəyaşayışa xidmət edəcək məsələlər müzakirəyə çıxarılıb, mühüm mesajlar verilib.

Bütün bu sadalanan faktlar ölkəmizin dünyada getdikcə artan nüfuzunun, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasının göstəricisidir. Reallıqlar onu deməyə əsas verir ki, bu gün Azərbaycan sadəcə neft-qaz ölkəsi, regionun enerji mərkəzi kimi deyil, eyni zamanda siyasi, mədəni və idman mərkəzi kimi də tanınmaqda, qəbul edilməkdədir.

**Rufik İSMAYILOV**